**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KUBAN VƏ DON RESPUBLİKALARININ YARANMASI VƏ ONLARIN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLƏ ƏLAQƏLƏRİ

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Seyidməmməd İlhami oğlu Məmmədzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycan Cümhuriyyəti tarixi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər**: | tarix elmləri doktoru,professor<br>**İkirəm Kərim oğlu Ağasiyev** |
| **Rəsmi opponentlər:** | AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor<br>**İsmayıl Muxtar oğlu Hacıyev** |
| | tarix elmləri doktoru, dosent<br>**Fərhad Rafiq oğlu Cabbarov** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Şirinbəy Hacıəli oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/ 1 Birdəfəlik Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: | tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: | tarix elmləri doktoru, professor<br>**İsmayıl Məhərrəm oğlu Musa** |

## I. DSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Rusiya imperiyası dağıldıqdan sonra Qafqazda yaranan dövlətlərin tarixi problemləri ən yeni tarixin ən aktual və eyni zamanda ən mürəkkəb məsələlərindəndir. Təəssüf ki, bu dövlətlər, o cümlədən Kuban Xalq Respublikası (KXR), Don Respublikası (DR) və Azərbaycan Xalq Cümhuruyyəti (AXC) arasında mövcud olmuş münasibətlərin öyrənilməsi Sovet dönəmində siyasi konyuktura xarakterli səbəblərdən tarixi tədqiqatlardan kənarda qalmışdı.

Postsovet dövründə Kuban Xalq Respublikası və Don Respublikası haqqında bu günədək yazılan məqalələr, dissertasiyalar kitablar əsasən daxili siyasət məsələlərinə, milli və aqrar məsələnin həllinə, dövlət quruculuğu məsələlərinə həsr olunmuşdur. Kuban və Don Respublikalarının xarici siyasətlə bağlı məsələləri – həm regional dövlətlərlə, həm də uzaq Avropa ölkələri ilə qarşılıqlı münasibətlərinin müxtəlif tərəfləri hələlik az öyrənilmişdir. Bu baxımdan Kuban və Don Respublikalarının Azərbaycan Xalq Cümhuriyyəti ilə münasibətləri istisna deyil – bu günədək istər Azərbaycan, istərsə də hər hansı bir xarici ölkə tarixşünaslığında bu məsələ ilə bağlı tədqiqat işi aparılmamışdır.

Tədqiq olunan mövzunun həm mürəkkəbliyini, həm də aktuallığını şərtləndirən aspektlərdən biri bu problemin tarix elmində nəzəri və praktiki cəhətdən hələ tam həllini tapmamasıdır. Ən mürəkkəb elmi məsələlərdən biri istər Kubanda, istərsə də Donda 1918-1920-ci illərdə konkret hansısa dövlət orqanını təsnifatlandırmaqdır. Bu gün də tarixi ədəbiyyatda belə bir sual açıq qalır -antibolşevik qüvvələrin Donda, Kubanda və Şimali Qafqazın başqa regionlarında yaratdığı birlikləri bu anlayışın klassik mənasında dövlət təşkilatı saymaq olarmı? Burada söhbət Böyük Don Qoşunu (BDQ)-Don Respublikasından, Kuban Xalq Respublikasından (1918-ci ilin avqustundan Kuban diyarı adlanırdı-**S.M.**), Dağlı respublikasından və general Denikinin rəhbərlik etdiyi Cənubi Rusiya Silahlı Qüvvələrindən (CRSQ) gedir.

Baxdığımız dissertasiyada müəllif Böyük Don Qoşununu, Kuban Xalq Respublikasını "dövlət qurumları" kimi xarakterizə etmişdir. Müəllifin seçimi o məntiqə əsaslanır ki, bunlar hələ tam müstəqil dövlət olmasalar da, artıq Rusiya imperiyasının vilayətləri də deyildilər. Onlar hələ müstəqil dövlətə məxsus atributlara – beynəlxalq statusa, hüquqi təsdiqlənmiş vətəndaşlığa malik olmasalar da, eyni zamanda, onlar Sovet Rusiyasının tərkib hissəsi də deyildilər. Qeyd edək ki, 6 ölkə - Osmanlı dövləti, Almaniya, Ukrayna, Gürcüstan, Dağlı respublikası və Azərbaycan Xalq Cümhuriyyəti Kuban respublikası ilə nümayəndəliklər səviyyəsində diplomatik əlaqələr qurmuşdular. Bu dövlət qurumlarının ali dövlət hakimiyyət orqanları var idi, xarici sərhədləri təyin olunmuşdu, məhkəmə və maliyyə sistemlərinin yaranması prosesi gedirdi.Nəzərə alaq ki, bu dövlət qurumları dövründə yaşayan bir çox siyasətçilər, hətta Kuban hökuməti öz rəsmi sənədlərində də onu məhz "dövlət qurumu" adlandırmışlar[1].

Bu mövzunun aktuallığı bir də onunla bağlıdır ki, baxdığımız dövrdə (1918-1920) dünyada unikal geosiyasi vəziyyət yaranmışdı. Birinci Dünya müharibəsinin sona çatdığı ərəfədə Avropada imperiyaların dağılması, yeni müstəqil dövlətlərin yaranması qlobal siyasi qüvvə və maraqlar balansının pozulması və nəticədə, dünya siyasətinin mərkəzlərinin dəyişməsi – bütün bu proseslərdə Azərbaycan Xalq Cümhuriyyəti və Qafqazın şimalında yaranan gənc Kuban və Don Respublikalarının yeri kimi məsələlərin hərtərəfli araşdırılmasına ehtiyac var və bu aktuallıq müasir dövrümüzdə də baş verən hadisələr fonunda dövlətin gələcəyi və möhkəmlənməsi naminə Azərbaycan Respublikasının yeni formalaşan siyasi düzəndə öz yerini optimal şəkildə təyin etməsi, siyasi, iqtisadi tərəfdaşların düzgün seçimi və s. məsələlərin effektli həlli ilə də bağlıdır.

[1] Меморандиум Кубанской Парламентской делегации.15 мая 1919 года. Париж // Государственный Архив Краснодарского Края, Фонд № р–411, опись 1, дело № 263, лист–4.

Bu gün Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi, iqtisadi, mədəni əlaqələr inkişaf etməkdədir. Bu əlaqələrdə Rusiya regionları xüsusi rol oynayırlar və Azərbaycan üçün Rusiyanın cənub regionları - Şimali Qafqaz, Kuban, Don, Həştərxan, Volqaboyu regionları ilə əməkdaşlıq prioritet istiqamətlərdəndir. Nəzərə alaq ki, adı çəkilən bu regionlarda erməni faktoru müəyyən iqtisadi və siyasi dayaqlara malikdir (təkcə Krasnodar diyarında 500 mindən artıq erməni yaşayır - **S.M**.) və onlar bu bölgədə Azərbaycan diasporunun fəaliyyətinə maneə yaradırlar. Kuban və Don regionlarının və onların Azərbaycanla münasibətləri tarixinin araşdırılması həm gələcəkdə bu regionlarla iqtisadi, siyasi, mədəni münasibətlərin dərinləşməsi, həm də ümumiyyətlə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi nöqteyi-nəzərindən vacibdir.

AXC hökuməti elan olunduğu gündən geniş dövlətçilik quruculuğuna başlamış, ordu yaradılmış, dövlət dili haqqında qanun qəbul edilmiş, dövlət idarəetmə orqanları, maliyyə sistemi yaradılmış və lazımi tədbirlər görülmüşdür.Xarici siyasət sahəsində AXC hökumətinin ən başlıca vəzifəsi respublikanın dünya miqyasında rəsmən tanınmasına nail olmaq idi. AXC- nin varlığına, tanınmasına ən böyük təhlükə şimaldan gəlirdi. İstər bolşevik Sovet Rusiyası, istərsə də ağqvardiyaçı Kolçak hökuməti, “Könüllü Ordu” və general Denikin AXC adında dövlətin adını belə eşitmək istəmirdilər. Bu baxımdan AXC –nin Rusiyanın cənubunda yaranan Kuban və Don Respublikaları ilə diplomatik münasibətlər qurmaq siyasəti çox vacib idi. AXC onların vasitəsi ilə həm özünə bufer zona yaradır, həm də müttəfiqlərinə niyyətinin ciddi olduğunu göstərir, bir daha hansı bayraq altında olursa olsun, Rus imperiyası tərkibinə qayıtmayacağı haqqında mesaj verirdi.

Mövzunun elmi-praktiki aktuallığı ondan ibarətdir ki, bu gün də dünya siyasətində 1918-1920-ci illərə bənzər proseslər gedir. 1918-1920-ci illərdə keçmiş Rusiya imperiyası ərazilərində yaranan gənc dövlətlər tez ya gec Qırmızı ordu tərəfindən işğal edildilər və bolşevizm maskası altında yaradılan Sovet imperiyasına qatıldılar. Bu

gün də SSRİ-nin dağılmasından və yeni müstəqil dövlətlərin yaranmasından 34 il keçməsinə baxmayaraq, bu və ya digər formada köhnə imperiyanın bərpasına can atan siyasi dairələr mövcuddur və bu qüvvələrə qarşı keçmişin səhvlərini təkrarlamamadan düzgün siyasət yeridilməsi vacibdir.1918-1920-ci illərdə gənc dövlətlərin bolşevik təhlükəsinə qarşı birləşə bilməməsinin səbəbinin araşdırılması və alınan nəticələr nəzəri olaraq bu gün postsovet dövlətlərinin yeni imperiya təhdidlərinə qarşı daha mükəmməl siyasət yeridilməsində yardımçı ola bilər.

1918-1920 – ci illərdə Kuban və Don Respublikalarının Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri probleminin tarixi hələ lazımi səviyyədə tədqiq olunmamışdır. Bu günədək Sovet, postsovet və xarici ölkələrin tarixşünaslığında baxdiğımız mövzu ilə bağlı problemləri sistemli və kompleks şəkildə əks etdirən heç bir elmi əsər yazılmamışdır.

Kuban və Donda respublikaların yaranmasının tarixi şərtlərinə, bu respublikaların daxili və xarici siyasət sahəsində fəaliyyətinə həsr olunmuş ədəbiyyatın təhlilindən sonra problem üzrə tarixşünaslığı aşağıdakı dövrlərə ayırmaq olar: 1) 1918-ci ilə qədər ; 2)1918-1920-ci illər; 3) 1921-1991-ci illər; 4) 1992-2024-cü illər.

Kubanda və Donda dövlət orqanlarının yaranmasının ilkin tarixi şərtləri haqqında tədqiqatlar Rusiyada hələ Fevral inqilabaqədərki dövrdə aparılmışdır.Bu dövrün müəllifləri əsas diqqəti kazak cəmiyyətlərinin tarixi, xalq idarəçiliyi və muxtariyyət ənənələrinə əsaslanan daxili təşkilatçılığın xüsusiyyətlərinə yönəltmişlər[2].

1918-1920-ci illərdə, Vətəndaş müharibəsi şəraitində Don və Kuban kazakları, ağ hərəkat və onun liderləri haqqında sənədlər, çıxışlar və tədqiqatlar dərc olunmağa başladı[3]. Baş vermiş hadisələrin

---

[2] Щербина Ф.А.История Кубанского казачьего войска / сост. Ф.А. Щербина. – Екатеринодар :1910–1913. –В 2–х томах. Т. 1 : История края. – 1910. -734 с.;Савельев Е.П. Казаки. История. Репритное переиздание книги Е.П. Савельева «Древняя история казачества», выходившей в городе Новочеркасске в 1915 г. – Владикавказ: Издание акционерного предприятия «Спас», –1991.– 184 с.

[3] Авраамов П. Генерал А.Г.Шкуро / Авраамов П.-Ростов–на Дону: 1919.-16 с.;Локерман, А.74 дня советской власти [Текст] : (из истории диктатуры

birbaşa iştirakçıları tərəfindən yazılan bu əsərlərin əksəriyyəti subyektiv xarakter daşıyır.

Sovet tarixşünaslığında (1921-1991) mövzu baxımından ən məhsuldar dövr 1921-1930-cu illər olmuşdur. Ancaq bu dövrdə yazılan əsərlərdə daha çox Don və Kubanda yaranan qeyri-bolşevik respublikaların mürtəce xarakter daşıdığı qeyd edilmiş və onların fəaliyyətini zəhmətkeş xalqın maraqlarına zidd fəaliyyət kimi qiymətləndirmişlər[4].

XX əsrin ikinci yarısında Kuban və Don respublikaları haqqında yazılan əsərlərdə onlara münasibət bir qədər yumşalsa da[5], bu respublikaların fəaliyyəti əksinqilabi fəaliyyət kimi göstərilmiş, bu dövlətlərin əsl mahiyyəti ikinci dərəcəli hesab olunaraq təhlil edilməmişdir[6].

1990-cı illərdən başlayaraq Rusiya tarixşünaslığında bir çox konseptual müddəalara yenidən baxıldı, ideoloji doqmalardan imtina edildi və nəticədə Kuban və Don respublikalarının fəaliyyətini obyektiv əks etdirən əsərlər işıq üzü gördü. Təsadüfü deyil ki, Kuban və Don kazakları, onların yaratdığı respublikalar haqqında ən məzmunlu əsərlər məhz dördüncü dövrdə, yəni 1992-ci ildən sonrakı dövrdə yazılmışdır.

Rusiya Federasiyasında Don kazaklarının 1918-1920-ci illərə aid tarixinə dair ən qiymətli əsərləri A.V.Venkov, V.P. Trut, Q.M.

---

большевиков в г. Ростове н–Д) / Локерман, А. – Ростов–на–Дону : Донской ком. РСДРП, –1918. – 101 с.

[4]Анишев А. Очерки истории гражданской войны 1917–1920 гг. / Ан. Анишев; Военно–полит. Акад. им. Т. Толмачева РККА и РККФ, -Л : Гос. изд–во, 1925. – 288 с.; Лихницкий И. Классовая борьба и кулачество на Кубани / Н. Т. Лихницкий. – Ростов–на–Дону : Северный Кавказ, –1931. – 191 с.

[5] Агурев К.В. Разгром белогвардейских войск Деникина (октябрь 1919 — март 1920 гг.)/ Агурев К.В. – М.: – Военное издательство Министерства Обороны Союза ССР, – 1961. –224 с.;

[6] Иоффе Г.З. Крах российской монархической контрреволюци / Иоффе Г.З. – Москва: издательство «Наука», – Москва: 1977. – 321 с.; Ермолин, А.П. Революция и казачество (1917 – 1920) / А.П.Ермолин. – М.: Мысль, – 1982. – 224 с.

İppolitov və başqaları yazmışlar[7]. Adı çəkilən əsərlərdə Vətəndaş müharibəsi illərində Donda gedən siyasi proseslər, bu proseslərdə siyasi partiyalar və onların kazak kütləsinə təsiri məsələləri tədqiq edilmişdir.

Postsovet dövründə Rusiya tarixşünaslığında Kuban haqqında yazılan əsərlərdən A.A.Zaytsevin, B.N.Ratuşnyakın, P.İ.Ostapenkonun əsərlərini xüsusi qeyd etmək lazımdır. Bu əsərlərdə Kuban tarixinin təhlilində yeni yanaşmalar əks olunmuşdur[8].

Son illər Rusiyada Kuban və Don tarixi ilə bağlı bir sıra dissertasiyalar müdafiə edilmişdir və bu tədqiqat işlərində Rusiyanın cənubunda Vətəndaş müharibəsinin sosial-iqtisadi, hərbi - siyasi aspektləri araşdırılmışdır. Bu əsərlərdən A.A. Çerkasovun, S.S.Kravçenkonun, O.B. Germanın, V.R. Averyanovanın əsərlərini göstərmək olar[9]. Həmin tədqiqat işləri Donda və Kubanda dövlət qurumlarının

---

[7] Венков А.В. Вёшенское восстание / А.В. Венков. — М.: Вече, 2012. — 336 с.; Трут В.П. Казачество России в период революций 1917 года и на начальном этапе гражданской войны: // Автореферат диссертации на соискание ученой степени доктора исторических наук./ – Ростов–на–Дону, 2005. –47 с.;Ипполитов Г.М. Военная и политическая деятельность А.И. Деникина, 1917–апрель 1920 г. /дис... канд. ист. наук / – М., 1994. – 260 с.; Федюк В.П. Белое движение на Юге России, 1917 – 1920 гг.: /дис. докт. ист. наук./– Ярославль, 1995. –383 с. Гордеев А.А. История казаков. / Гордеев А.А. – М.: – 1992. –1310 с.

[8] Зайцев А.А. Региональный политический процесс в условиях Гражданской войны 1917–1922 гг.: на материалах Дона и Кубано–Черноморья: / Автореферат диссертации на соискание ученой степени доктора истори-ческих наук /– Москва – Краснодар, 2009, – 33 с.; Ратушняк О. В. Политические искания донского и кубанского казачества в годы Гражданской войны в России (1918—1920 гг.). // – Москва: Альманах «Белая гвардия» – 2005. № 8, – с. 17-23; Остапенко П. И. Казачьи государственные образования на юге России (Февраль 1917 – начало 1920 г.). (Историко – правовой анализ): / Автореферат диссертации на соискание ученой степени доктора юридических наук./ – Краснодар, 2004.– 55 с.

[9]Черкасов А.А.Гражданская война н Кубани и Черноморье (1917 – 1922 гг.): "третья сила" в социально– политическом противостоянии: /автореферат диссертации на соискание ученой степени д–ра ист. наук /. – Ставрополь, 2007, 27 с.; Кравченко С.С. Казачье самоуправление в годы гражданской войны 1917–1920 гг.: на материалах Дона и Кубани: /дис.канд. ист. наук / – Кропоткин, 2008.– 17 с.; Аверянов В.Р. Государственные образования на Кубани в 1917–1920 гг.: историко–правовой анализ /Автореферат диссертации

yaranması və inkişafı tarixinin öyrənilməsinə mühüm töhfə vermişdir. Ancaq bütün bu adı çəkilən dissertasiyalarda Don və Kuban respublikalarının daxili və xüsusən də xarici siyasətinin bir çox məsələləri tədqiq edilməmişdir.

Mövzunun tarixşünaslığında mühacir ədəbiyyatı xüsusi bir istiqamət təşkil edir.[10] Mühacirlər tərəfindən yazılan bu əsərlərdə arxiv sənədlərindən istifadə olunmadığından məlumat qıtlığı hiss olunur və əsərlər daha çox müəlliflərin şəxsi baxışlarını əks etdirir.

Ukrayna tarixşünaslığında V. İvanis, R. Polyovoy, D. Bilıy Kuban tarixinə bir neçə əsərlər həsr etmişlər[11]. Ukraynalı müəlliflərin əsərlərində Kuban tarixi Ukrayna ərazisi kimi təqdim edilir, Kuban Xalq Respublikası Ukraynamənşəli Qaradəniz kazaklarının yaratdığı dövlət kimi xarakterizə olunur.

Azərbaycan tarixşünaslığında bu günədək Kuban və Don respublikalarının tarixi, həmçinin onların Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri haqqında hər hansı bir kompleks tədqiqat işi yazılmamışdır.N.Nəsibzadənin,C.Həsənlinin, S. Yusifzadənin AXC-nin xarici siyasətinə həsr olunmuş əsərlərində bu problemin ümumi məsələlərinə toxunulmuşdur[12].

---

на соискание ученой степени кандидата юридических наук. /– Москва, 2018, – 25 с.; Герман О.Б. Казаки и крестьяне Дона в 1917 – начале 1918 г.: /Дис. канд. ист. наук /– Ростов н/Д, 1999. –262 с.

[10] Витковский В. К. В борьбе за Россию. Воспоминания / Витковский В. К.– Сан–Франциско: 1963.– 80 с.; Давацъ В.На Москву / Давацъ В.– Париж: Типография акционерного общества И.Рираховский, – 1921.– 116 с.;Елисеев Ф.И.Партизан Шкуро.Февраль 1955 г./ Елисеев Ф.И. Нью–Йорк: 279 с.; Поляков И.А. Донские казаки в борьбе с большевиками : в 5 ч. /, Поляков И.А. – Мюнхен: 1962.– 388 с.; Сулятицкий П. Разгром Кубанской Краевой Рады в ноябре 1919 года / Сулятицкий П.-Прага: Видавництво «Кубанський Край», – 1931. – ч. 9. –34 с.

[11] Іванис Василь. Боротьба Кубані за незалежність. / Іванис В.– Мюнхен: 1968.–137 с.;Батько українських самостійників Кубані Кузьма Безкровний // Ренат Польовий. Кубанська Україна. – Київ: Діокор, –2002. – с.52-57; Білий Д. Д. Кубанська народна республіка // Енциклопедія історії України: Т. 5: Кон — Кю. / Редкол.: В. А. Смолій (голова) та ін. НАН України. Інститут історії України. — К.: В–во «Наукова думка»,– 2008, – 568 с.

[12] Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918–1920–ci illər) / Nəsibzadə N.L.–Bakı: Ay–Ulduz, –1996. – 304 s.; Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918– 1920) / Həsənli C.P.– Bakı: "GARISMA" MMC,– 2009. –576 s.; Юсифзаде С.З. Первая Азербайджанская Республика:

Kuban və Don respublikalarının tarixi məsələləri haqqında İ.K.Ağasiyevin yazdığı əsərlər təqdirəlayiqdir[13]. Lakin bu əsərlər də kompleks xarakter daşımır, dissertasiyada baxdığımız problemlərin böyük əksəriyyəti tədqiqatçının diqqətindən kənarda qalmışdır.

S.Əliyevanın AXC ilə Dağlı Respublikası arasında münasibətlərə həsr olnan məqalələrində regional xarakterli məsələlər də işıqlandırılmışdır. Onun 2020-ci ildə nəşr etdirdiyi monoqrafiyada qısa şəkildə AXC ilə Kuban Xalq Respublikası arasında münasibətlərə ötəri toxunulmuşdur[14].Bu əsərdə AXC və Don respublikası arasında münasibətlər ümumyyətlə tədqiq edilməmişdir.

Beləliklə, mövzunun tarixşünaslığının təhlilindən də göründüyü kimi, Azərbaycan və xarici ölkə tarixşünaslığında Kuban və Don respublikalarının tarixinə dair müəyyən elmi araşdırmalar aparılmış və bu zaman adı çəkilən dövlət qurumlarının yaranışına, sosial-iqtisadi durumuna, daxili siyasətinə və ümumi regional problemlərə daha çox diqqət yetirilmişdir. Bu respublikaların xarici siyasət məsələri az araşdırılmış və AXC ilə münasibətləri haqqında ümumiyyətlə kompleks tədqiqatlar aparılmamışdır.

Dissertasiyanın elmi əhəmiyyətini artıran amillərdən biri də çoxsayda arxiv və sair nəşr olunmuş mənbələrdən istifadə olunmasıdır. Müəllifin istifadə etdiyi arxiv sənədlərinin böyük hissəsi ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir.

Dissertasiyanın hazırlanması zamanı daha çox Azərbaycan Respublikasının Dövlət arxivinin 894, 897, 970 saylı, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin 277 saylı, Rusiya Federasiyasının Krasnodar Diyar Dövlət arxivinin p-6 , 14, p-411 və p-1542 saylı və Gürcüstan Mərkəzi Tarix

---

история, события, Факты англо–азербайджанских отношений. / Юсифзаде С.З. – Баку: 1998. –208 с.

[13] Ağasiyev İ.K.Kuban Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri (1918–1920)//– Bakı: Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri,Xüsusi buraxılış, 2018.– № 74,75,76,- s. 24–29.; Ağasiyev İ.K. Kuban Xalq Respublikası (1918–1920) // Qafqazda ilk respublikalar (1918–1921) – Bakı: "Ideai–print" MMC, –2021. – s.353–379; Ağasiyev İ.K. Don Respublikasının yaranması və fəaliyyəti (1918–1920) // Qafqazda ilk respublikalar (1918–1921) – Bakı: "Ideai–print" MMC, –2021.– s.331–352.

[14] Əliyeva S. Azərbaycan Xalq Cümhuriyyəti və Şimali Qafqaz dövlətləri: müstəqillik illərində (1918–1920) / Əliyeva S. –Bakı:«Avropa»,– 2020.– 322 c.

arxivinin 1864, 1861 və 1820 saylı fondlarının materiallarından geniş şəkildə istifadə olunmuşdur.

Nəşr olunmuş mənbələr sırasında dövlət qurumlarının müxtəlif illərdə kazaklara rəğmən siyasətini əks etdirən normativ-hüquqi aktlar , Donda, Şimali Qafqazda, Azərbaycanda Vətəndaş müharibəsi dövründə cərəyan edən hadisələri əks etdirən sənədlər və materiallar topluları xüsusi əhəmiyyətə malikdir [15].

Tədqiqat zamanı müəllif Rusiyanın cənubunda baş vermiş siyasi hadisələrin birbaşa iştirakçısı olmuş şəxslərin-general A.İ. Denikinin və onun silahdaşları A.P.Boqayevskinin, Q.Pokrovskinin, Kuban diyar Radasının liderlərindən biri D.Y. Skobsovun, Kuban atamanı A.P. Filimonovun, ataman P.N. Krasnovun, P.N. Vrangelin, A.Q. Şkuronun və sairlərin memuarlarından da istifadə etmişdir.

Nəşr olunmuş mənbələrdən Ə.M.Topçubaşovun 4 kitabdan ibarət "Paris Arxivi"indən də dissertasiyanın yazılmasında istifadə olunmuşdur[16].Adı çəkilən mənbələrin bir çoxu ilk dəfədir ki, elmi dövriyyəyə daxil edilir.

Müəllif geniş və müxtəlif çeşidli mənbələr əsasında Don, Kuban respublikalarının tarixinin, onların AXC ilə münasibətlərinin aktual məsələlərini tədqiq etmiş və Azərbaycan tarixşünaslığında, demək olar ki, tədqiq olunmayan bu mövzu üzrə çoxsaylı arxiv materiallarını və nəşr olunmuş mənbələri elmi dövriyyəyə buraxmışdır.

---

[15] Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. – Bakı: "Garisma" MMC, – 2009. – 352 s.; Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920). Parlament (Stenoqrafik hesabatlar).I cild.–Bakı:"Azərbaycan" nəşriyyatı, -01998-976 s.;Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы) — Баку:-издательство "Азербайджан",–1998.-632 с.;Архив русской революции, издаваемый Г.В. Гессеном. В 22 –х томах. Т. XVI. Издание третье.– Берлин: Издательство «Слово», –1925.–296с.; Империалистическая интервенция на Дону и Северном Кавказе. Под общей редакцией академика И.И. Минца.– Москва: Наука, –1988.– 261 с.;Союз объединенных горцев Северного Кавказа и Дагестана (1917–1918 гг.) и Горская Республика (1918–1920 гг.): Док. и материалы / ФГБУН Ин–т истории, археологии и этнографии Дагестан. науч. центра РАН; Сост. Г.И. Какагасанов, Л.Г. Каймаразова. — Махачкала: Алеф,– 2013, –290 с.

[16] Топчибаши А. М. Парижский архив 1919–1940. В четырех книгах. – Книга первая 1919–1921.– Составители Г. Мамулиа и Р. Абуталыбов. Введение, перевод и примечания Г. Мамулиа. Научный редактор кандидат исторических наук Исмаил Агакишиев. — М.: Худож. лит., – 2016. - 568 с.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti 1918-1920-ci illərdə mövcud olan yeni dövlətlərin – Kuban Xalq Respublikasının və Don Respublikasının yaranması prosesi və onların Azərbaycan Xalq Cümhuriyyəti ilə kompleks münasibətlərdir.Tədqiqatın predmetini isə göstərilən dövrdə Rusiyanın cənubunda baş verən siyasi-hərbi hadisələr nəticəsində meydana gələn Kuban Xalq Respublikasının və Don Respublikasının yaranmasının tarixi şərtlərini, tarixi-coğrafiyasını, siyasi quruluşu, xarici siyasəti, Azərbaycan Xalq Cümhuriyyəti ilə iqtisadi, siyasi, diplomatik münasibətlərinaraşdırılması və baş verən proseslərə qiymət verilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Baxdığımız problemin araşdırılma səviyyəsindən irəli gələrək tədqiqat işinin əsas məqsədi ayırd edilmişdir ki, bura Kuban və Don Respublikalarının yaranması şəraiti və fəaliyyət istiqamətləri, onların AXC ilə münasibətlərinin mahiyyəti və xüsusiyyətlərinin ayırd edilməsi və əsaslandırılması, bu prosesə qərəzli, təhrifedici yanaşmaların ifşa edilməsi, siyasi hadisələrin obyektiv, elmi mənzərəsinin yaradılması daxildir.

Tədqiqat zamanı qarşıya qoyulan məqsəddən irəli gələrək, geniş çeşidli arxiv sənədləri və nəşr edilmiş mənbələr, o cümlədən xüsusi ədəbiyyat materiallarına əsaslanaraq aşağıdakı konkret vəzifələr yerinə yetirilmişdir:

-problemin elmi araşdırılma dərəcəsini, mənbə bazasını, onun öyrənilməsinin metodoloji əsasını və bütün bunların nəzərə alınması ilə onun zəif işlənilmiş aspektlərini və gələcək tədqiqatların perspektivlərini təyin etmək;

- 1917-ci il Fevral inqilabına qədərki dövrdə Kuban və Donun tarixi-coğrafi vəziyyətini araşdırmaq, bu regionların etno-siyasi xüsusiyyətlərinin tarixi köklərini ayırd etmək;

- Fevral inqilabından sonrakı aylarda Kubanda və Donda dövlət quruculuğuna şərait yaradan sosial-siyasi dəyişiklikləri təhlil etmək;

- Don, Kuban və Cənubi Rusiyanın digər regionlarında mövcud olan siyasi qüvvələrin federativ dövlət yaratmaq uğrunda fəaliyyətini araşdırmaq, Don və Kuban kazaklarının siyasi özünütəyinetməsində yaranan ziddiyyətləri işıqlandırmaq;

- Kuban Xalq Respublikasının yaranmasının tarixi şərtlərini, daxili və xarici vəziyyətini təhlil etmək;

- AXC –nin Kuban Xalq Respublikası ilə diplomatik əlaqələr qurması və diplomatik nümayəndəliyin fəaliyyətinin işıqlandırılması;

- Paris Sülh Konfransında KXR və AXC nümayəndələrinin əməkdaşlığını araşdırmaq və bu əməkdaşlığı mümkün edən siyasi platformanı göstərmək;

- "rus məsələsi"nin həlli istiqamətində Kuban və Azərbaycan respublikalarının əməkdşlığını araşdırmaq;

- Don Respublikasının yaranması tarixini işıqlandırmaq, onun Cənubi Rusiya Silahlı Qüvvələrinə inkorporasiya etməsinin səbəblərini təhlil etmək;

- CRSQ və AXC arasında"Dağlı Respublikasına təsir" uğrunda mübarizənin məqsəd və xüsusiyyətlərini araşdırmaq;

- Kuban və Don respublikalarının ləğvinin səbəblərini və bu hadisənin AXC-nin daxili və xarici vəziyyətinə təsirini araşdırmaq;

- tədqiqat işinə yekun vuraraq alınan nəticələr əsasında təkliflər irəli sürmək.

**Tədqiqat metodları.**Dissertasiyada tədqiqatın metodoloji və nəzəri əsası kimi elmilik, obyektivlikvə tarixilik prinsiplərindən istifadə edilmişdir ki, bu da tədqiq edilən mövzunun təhlilinə tarixi-təkamül, tarixi-konkretlik yanaşmalarının tətbiq edilməsinə imkan vermişdir.

Araşdırma zamanı müəllif, həmçinin, tarixi-genetik, tarixi-müqayisə, tarixi-tipoloji, tarixi-sistem və riyazi metodlardan da istifadə etmişdir.

Tədqiqat zamanı istifadə olunan nəşr edilməmiş və ilk dəfə elmi dövriyyəyə daxil edilən çoxsaylı arxiv materialları, o cümlədən nəşr edilmiş müxtəlif səpkili yazılı mənbələr, dövri mətbuat materialları dissertasiya işinin əsasını təşkil edir. Həm əldə edilən mənbələr, həm də tədqiqata aid ədəbiyyat tənqidi cəhətdən nəzərdən keçirilmiş, elmi-tədqiqat prinsiplərinə əsaslanaraq onlara qiymət verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan elmi müddəalar da elmi yeniliyi ilə seçilir. Dissertasiya işinin məqsəd və vəzifələrinə müvafiq olaraq müdafiəyə aşağıdakı müddəalar çıxarılmışdır:

-1918-ci ildə öz dövlətini qurmaq iddiasında olan Don və Kuban əraziləri tarixin ən müxtəlif dövrlərində əsasən türk mənşəli tayfaların və xalqların yaratdığı dövlətlərin tərkib hissəsi olmuş və bu amil adı çəkilən regionların əhalisinin etnik tərkibinə, mentalitetinə, iqtisadi, siyasi və mədəni həyat tərzinə təsir göstərmiş, ümumi rus kütləsindən fərqli olan kazak silkinin formalaşmasına gətirmişdir ki, bu da kazakların1917-1920-ci illərdə Rusiyada baş verən proseslərə münasibətinin və iştirakınının xüsusiyyətlərində əks olunmuşdur;

-1917-1920-ci illərdə Kuban və Don kimi kazak ərazilərində hadisələrin dramatik xarakter daşımasının əsas səbəbi kazaklarla kəndlilər arasında, onların hüquqi baxışlarındakı fərqlərdən yaranan mürəkkəb münasibətlər olmuşdur və bu münaqişənin səbəbləri hələ XIX əsr ərzində və XX əsrin əvvəllərində yetişmişdir;

- Kubanda və Donda kazaklar Müvəqqəti hökumətin və daha sonra bolşeviklərin elan etdiyi sovet hökumətinin şübhəli legitimliyini dəstəkləmədilər və yerli kazak özünüidarəetmə orqanlarını yaratdılar. Bu özünüidarə orqanlarının əsas vəzifəsi Kuban və Don ərazilərinin muxtariyyətinin, kazak azadlıqlarının qorunub saxlanması, bu regionlara Mərkəzi Rusiyadan anarxiya və xaosun daxil olmasının qarşısının alınması idi;

- İnqilabi 1917-ci ildə həm Kubanda və həm də Donda əhali arasında ideoloji parçalanma olsa da, onlar bu regionlara demokratik Rusiya Federasiyası çərçivəsində muxtariyyət verilməsi məsələsində həmfikir idilər, ancaq 1918-ci ilin əvvəllərində vətəndaş müharibəsinin başlanması və Sovet Rusiyası tərəfindən gələn sovetləşmə təhlükəsi muxtariyyət ideyasının müstəqillik ideyaları ilə əvəzlənməsinə gətirdi;

- 1918-1920-ci illərdə Kubanda və Donda siyasi mahiyyətinə görə bolşevik və antibolşevik yönümlü müxtəlif dövlət qurumları mövcud olmuşdur və bu dövlət qurumlarından siyasi cəhətdən ən uzunömürlüsü və ən dayanıqlısı Kubanda Kuban Xalq Respublikası və Donda Böyük Don Qoşunları – Don respublikası olmuşdur. Bu dövlət qurumları öz ərazisi, öz vətəndaşlığı, öz hərbi qüvvələri, öz dövlət simvollarına məxsus olaraq dövlət suverenliyi atributlarına malik

olmuşdur və AXC məhz bu iki antibolşevik məzmunlu respublika ilə diplomatik əlaqələr qurmuşdur;

- bu respublikalar mövcud olduqları dövrdə əvvəl "Könüllü Ordu"dan, daha sonra isə Cənubi Rusiya Silahlı Qüvvələri adlı hərbi-inzibati qurumdan asılı vəziyyətdə olmuşdur: CRSQ bu dövlət qurumlarının daxili və xarici siyasət kursuna, o cümlədən AXC ilə münasibətlərinə önəmli təsir göstərmişdir;
- AXC Vətəndaş müharibəsini Rusiyanın daxili işi hesab edirdi və orada baş verən proseslərə qarışmasa da, eyni zamanda, istər rus monarxiyaçıları tərəfdən, istərsə də bolşeviklər tərəfindən gözlənilən labüd təhlükə şəraitində müstəqil siyasət yürüdərək Donda, Kubanda və Qafqazın digər regionlarında yaranan, AXC-nin dövlət maraqlarına zidd siyasət yeritməyən, bolşevizmi qəbul etməyən yeni dövlətlərlə əməkdaşlıq edirdi;

- Kubanda və Donda daxili siyasi vəziyyətin mürəkkəbliyi səbəbindən diplomatik nümayəndəliyin fəaliyyəti təhlükəli olsa da, Sovet Rusiyası ilə Azərbaycan arasında təhlükəsizlik zolağı yaradan bu dövlət qurumları ilə əlaqələrin qurulması AXC-nin dövlət təhlükəsizliyinin möhkəmləndirilməsi nöqteyi-nəzərindən əhəmiyyət kəsb edirdi;

- 1919-cu ilin yanvarında Denikinin komandanlığı ilə yaradılan CRSQ adlı hərbi-inzibati qurum Kuban və Don respublikalarını öz nüfuz dairəsinə saldıqdan sonra Kuban Xalq Respublikası siyasi müstəqilliyini qismən qoruya bilsə də, Don Respublikası tamamən CRSQ-yə inkorparasiya etmişdi;

-AXC-nin Don respublikası ilə münasibətləri 1919-cu ilin yazından AXC - CRSQ münasibətləri kontekstində qurulmuşdu və bu münasibətlər təzadlarla zəngin idi: AXC və Don iqtisadi məsələlərdə və bolşevizmə qarşı birgə mübarizədə əməkdaşlığa ehtiyac duysalar da, bir çox prinsipial məsələlərdə - "rus məsələsi"nin həlli yolları və perspektivləri, Dağlı respublikası ilə bağlı, Xəzər donanmasının bölüşdürülməsi və ondan irəli gələn məsələlərdə onların mövqeləri fərqli və barışmaz idi;

- Paris sülh konfransında AXC nümayəndə heyəti ilə də yaxından əməkdaşlıq edərək Kuban respublikasının müstəqilliyi uğrunda mübarizə aparan Kuban nümayəndə heyətinin aktiv fəaliyyətinə baxmayaraq,Antanta ölkələri Kubanın müstəqilliyini tanımaqdan imtina etdilər, çünki onlar hələ də Vahid Rusiyanın bərpasına ümid edirdilər;

-Kuban Xalq Respublikasının Paris sülh konfransında, eləcədə beynəlxalq münasibətlərin digər istiqamətlərində müstəqil fəaliyyəti Denikin tərəfindən Rusiya maraqlarına xainlik kimi dəyərləndirildi, Kuban rəhbərliyi ilə ağ hərəkat liderləri arasındakı ziddiyyətləri daha da dərinləşdirdi, siyasi xaos artdı. Nəticədə, Şimali Qafqazda Vətəndaş müharibəsinin taleyi Qırmızı Ordunun xeyrinə həll olundu, 1920-ci ilin yazında Donda, Kubanda və bütün Şimali Qafqazda Sovet hökuməti quruldu;

- Qırmızı Ordunun Don və Kuban respublikalarını ələ keçirməsi Azərbaycan Xalq Cümhuriyyətininin daxili və beynəlxalq vəziyyətinə mənfi təsir etdi, AXC-ninbolşevik qüvvələri tərəfindən işğalını asanlaşdırdı;

-Azərbaycan Xalq Cümhuriyyəti, Kuban, Don Respublikaları və keçmiş Rusiya imperiyası ərazilərində yaranan sair gənc dövlətlərin süqutunun səbəblərindən ən başlıcası anti-bolşevik qüvvələr arasındakı ziddiyyətlər, onların bir araya gələ bilməməsi olmuşdur ki, bu səhvlər Sovet hakimiyyətinin sonrakı illərində bütün SSRİ xalqlarına, o cümlədən Şimali Qafqazda yaşayan əhaliyə minlərlə qurbanlar hesabına başa gəlmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Dissertasiyanın elmi yeniliyi onunla təyin olunur ki, bu günədək istər Azərbaycan, istərsə də başqa ölkələrin tarixşünaslığında Kuban və Don Respublikalarının AXC ilə əlaqələrinə həsr olunmuş heç bir kompleks tədqiqatlar aparılmamışdır. Tədqiq olunan dissertasiya Kuban və Don respublikalarının yaranması və onların AXC ilə əlaqələrinin bütöv tədqiqinə həsr olunmuş ilk tədqiqat əsəridir;

- Kuban və Don respublikalarının yaranmasının ilkin tarixi şərtləri, səbəbləri dolğun şəkildə göstərilmiş, bu məsələ ilə bağlı bu günə qədər Vətən tarixşünaslığına məlum olmayan faktlar, hadisələr işıqlandırılmışdır;
- ilk dəfə olaraq AXC hökumətinin Kuban və Don Respublikalarında diplomatik fəaliyyəti araşdırılmış, AXC hökumətinin Rusiya imperiyası ərazilərində yaranan gənc dövlətlərlə münasibətlərə xüsusi önəm verməsi vurğulanmışdır ;
- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Kuban və Don nümayəndə heyətlərinin Paris Sülh Konfransında fəaliyyəti və onların AXC nümayəndə heyəti ilə əməkdaşlığı məsələləri tədqiq olunmuşdur;
- geniş arxiv sənədləri əsasında AXC-nin Cənubi Rusiya Silahlı Qüvvələri ilə münasibətləri araşdırılmış, elmi dövriyyəyə, bu günədək elmi ictimaiyyətə az məlum olan faktlar daxil edilmişdir ;
- AXC-Kuban, AXC- CRSQ münasibətləri fonunda Azərbaycan Xalq Cümhuriyyəti tarixinin az öyrənilən səhifələrindən biri – "Dağıstanın Azərbaycana birləşməsi məsələsi"nin yaranması, mahiyyəti, əsas müzakirə mərhələləri tədqiq edilmiş, bu məsələnin AXC-nin xarici əlaqələrinə təsiri göstərilmişdir;
- müəllif Azərbaycan Respublikası,Rusiya Federasiyası və Gürcüstan Respublikası arxiv fondlarında saxlanılan çoxsaylı və əvvəllər istifadə olunmamış dəyərli sənədləri, Azərbaycan, Ukrayna, rus, alman dillərində nəşr edilən mətbuat, epistolyar və sair xarakterli faktiki materialları elmi dövriyyəyə daxil etmişdir;
- böyük əksəriyyəti ilk dəfə elmi dövriyyəyə daxil edilən çoxsaylı tarixi mənbələrin təhlili əsasında faktiki olaraq AXC tarixinin tədqiqində yeni istiqamətin inkişafı üçün başlanğıc qoyulmuşdur. Belə ki, Azərbaycan tarixşünaslığında keçmiş Rusiya imperiyası ərazilərində yaranan yeni gənc dövlətlərlə axc arasında münasibətlər zəif tədqiq olunmuşdur və bu problem öz tədqiqatçılarını gözləyir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim edilmiş dissertasiyanın materialları, təklifləri, nəticələri və ümumiyyətlə məzmunu dövlətlərarası, xalqlararası və mədəniyyətlərarası münasibətlər haqqında nəzəriyyənin daha da inkişaf etdirilməsində yardımçı ola bilər.

Dissertasiyanın materialları və nəticələri Azərbaycan, Rusiya, o cümlədən Qafqaz, Şərqi Avropa dövlətlərinin tarixinə dair ümumi əsərlərin, dərsliklərin və dərs vəsaitlərinin yazılmasında, etnoqrafiya, regionşünaslıq, siyasətşünaslıq kursları üzrə mühazirə mətnlərinin tərtibində əsas material kimi istifadə edə bilərlər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmununu əhatə edən müddəalar müəllif tərəfindən Azərbaycan, Türkiyə, Rusiya və Ukraynada çap olunmuş məqalələrində, həmçinin beynəlxalq və respublika səviyyəli konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi" şöbəsində müzakirə olunmuş, təsdiq edilmiş və yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiya girişdən, 3 fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Dissertasiyanın Girişinin həcmi 44382, I Fəsil -45996, II Fəsil-98075 , III Fəsil-82106, Nəticə-16887 və dissertasiyanın ümumi həcmi 287446 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, problemin işlənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir.Həmçinin, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar və nəzəri-praktiki əhəmiyyəti göstərilmiş, elmi yeniliyi verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Kuban və Don vilayətləri 1917-ci ildə:inqilabi proseslər və dövlət quruculuğunda ilk addimlar"** adlanır. Fəsil iki yarımfəslə bölünmüşdür. **"Kuban və Don regionlarının Fevral inqilabına qədərki dövrdə etno-siyasi və tarixi-coğrafi vəziyyəti"** adlanan birinci yarımfəsildə Kuban və Don

regionlarının etno-siyasi və tarixi-coğrafi tarixinə nəzər salınmış və belə bir nəticəyə əldə edilmişdir ki, Kuban və Don əraziləri hələ qədim zamanlardan əsasən türk və qismən qeyri-türk kökənli tayfaların məskəni olmuş, Rusiya imperiyasına qatılanadək müxtəlif türk dövlətlərinin tərkib hissəsi olmuşdur. Rusiyaya birləşdirilməsinədək adı çəkilən regionların əhalisi əsasən Qafqazın yerli müsəlman xalqlarından, noqaylardan, kalmıklardan və çar hökumətindən gizlənərək sərbəst həyat sürən slavyan mənşəli qaşqınlardan ibarət idi.

Apardığımız araşdırma göstərir ki, Rusiya imperiyasına qatıldıqdan sonra çarizm məqsədli şəkildə bu regionlarda slavyan mənşəli və xristian etiqadlı əhalini yerləşdirmək siyasəti yürüdürdü. Çarizmin Donda və Kubanda apardığı məskunlaşdırma siyasəti tədricən bu regionların əhalisinin etnik, dini, sosial-siyasi strukturunun dəyişməsinə və mürəkkəb etnogenez prosesləri nəticəsində həm Donda, həm də Kubanda bir çox xüsusiyyətlərə, o cümlədən siyasi təşkilatlanma qabiliyyətinə malik "kazak" subetnosunun formalaşmasına gətirdi. Məhz "kazak" amili 1917-ci ilə qədərki dövrdə Kubanının və Donun regional siyasi və hüquqi xüsusiyyətlərini şərtləndirmiş, son nəticədə Kuban və Donda kazak dövlətçiliyinin formalaşmasına səbəb olmuşdur.

Birinci fəslin ikinci yarımfəsli "**Kuban və Don Qoşunları vilayətləri dövlət quruculuğunun başlanğıc mərhələsində (1917-ci ilin fevralı-dekabrı)**" adlanır. Bu yarımfəsildə göstərilir ki, 1917-ci ilin Fevral inqilabı və çarizmin devrilməsi Kuban və Donda dövlət quruculuğunun yeni mərhələsinə imkan yaratdı, demokratikləşmə prosesi başladı. 1917-ci ilin yazı-yayında həm Donda, həm də Kubanda demokratik, federativ Rusiya dövləti qurmaq və bu dövlət çərçivəsində Donun və Kubanın muxtariyyətinə nail olmaq uğrunda mübarizə aparıldı.1917-ci ilin oktyabrında Sovet hakimiyyətini tanımayan Don, Kuban, Şimali Qafqaz və Böyük Çöl əhalisi demokratik, federativ, azad Rusiya qurmaq və öz bölgələrinin bu federasiyada muxtariyyətini təmin etmək məqsədilə Cənub-Şərq İttifaqı

yaratdılar[17]. Lakin Cənub-Şərq İttifaqı hökuməti kəskin sosial və milli münaqişələrin öhdəsindən gələ bilmədi və əhalinin əsas kütləsi – kəndliləri maraqlandıran aqrar məsələni həll edə bilmədi. Nəticədə, 1918-ci ilin əvvəllərində Kubanın, Donun və Cənubi Rusiyanın sair regionlarının sovetləşməsi fonunda Cənubi-Şərqi İttifaq sakitcə tarixin səhnəsindən çəkildi. Rusiyanın cənubunda regional bir dövlətin qurulması layihəsi fiaskoya uğradı.

Dissertasiya işinin ikinci fəsli“**Kuban Xalq Respublikasının yaranması və Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri”** adlanır. Fəslin **“Kuban Xalq Respublikasının elan olunması, daxili vəziyyəti və xarici siyasəti”** adlı birinci yarımfəslində göstərilir ki, Kuban Radası 1918-ci ilin yanvarın 8-də Kuban Xalq Respublikasını elan etdi. Sosial təbəqələr arasındakı ziddiyyətlər Kubanda vətəndaş müharibəsinin başlamasına, ərazisinin çox hissəsində Sovet hakimiyyətinin bərqərar olmasına səbəb oldu. Özünü müdafiə üçün yetərli silahlı qüvvəyə malik olmayan və Donda “sürgün hökumət” kimi fəaliyyət göstərən gənc respublikanın liderləri monarxiyaçı general Denikinin komandanı olduğu “Könüllü Ordu” ilə yaxınlaşmağa və onunla ittifaqa girməyə məcbur oldular[18]. Bu Kuban respublikasının sonrakı taleyinə çox ciddi təsir göstərdi: əvvəl Kubanın silahlı qüvvələri, daha sonra Kuban Parlamenti və hökuməti də Denikinin nəzarətinə keçməyə başladı. Kubanın müstəqilliyi uğrunda çalışan siyasi xadimlər Denikinin diktatorluğuna qarşı açıq mübarizəyə qalxdılar.Denikinlə Kuban respublikası arasında ziddiyyətlər prinsipal məsələlər ətrafında cərəyan edirdi: Kubanın azad, suveren respublika kimi fəaliyyət göstərmək iddiaları, onun ABŞ, Almaniya, Osmanlı dövləti, Ukrayna, Türküstan, Gürcüstan kimi dövlətlərlə əlaqələr qurmaq cəhdləri, Dağlı respublikası, xüsusən də Azərbaycan Xalq

---

[17] Юго–Восточный Союз казачьих войск, горцев Кавказа и вольных народов степей. Союзный Договор от 20 октября 1917 года // Государственный Архив Краснодарского Края, Фонд № р–6, опись №1, дело № 48, листы – 28, 28 об.
[18] Памятная записка председателя делегации Л.Л. Быча, врученная американской миссии // Государственный Архив Краснодарского Края, Фонд № р–411, опись № 2, дело № 263, лист–9.

Respublikası ilə sıx münasibətlərə can atması – bütün bunlar general Denikinin “vahid və bölünməz Rusiya” şüarı kontekstindən kənara çıxırdı.

İkinci fəslin ikinci yarımfəsli **“Kuban Xalq Respublikasında Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəliyinin təşkili və fəaliyyəti**“ adlanır.Yarımfəsildə AXC-nin Kubandakı nümayəndəliyinin siyasi, iqtisadi və humanitar məsələlərin həlli yolunda fəaliyyəti araşdırılmışdır. İkinci yarımfəslin birinci bəndi **“Azərbaycanın Kubandakı nümayəndəliyinin siyasi-diplomatik fəaliyyəti”** adlanır və burada qeyd olunur ki, hələ 1919-cu ilin martında AXC ilə Kuban respublikası arasında diplomatik əlaqələr yaradıldı. Kuban respublikası ilə əlaqələr əsasən siyasi – diplomatik xarakter daşıyırdı və bu münasibətlər əsasən, bir neçə istiqamətdə qurulmuşdu. Bu istiqamətlərdən ən birincisi sovetləşməyə, bolşevizmə qarşı birgə mübarizə idi. İkinci vacib məsələ, “rus məsələsi” idi. Bu məsələdə də, AXC və Kuban Xalq Respublikasının mövqelərində elə də prinsipial fərqlilik yox idi-həm Kuban, həm AXC Rusiyada monarxiyanın və köhnə Rusiya imperiyasının bərpasına qarşı çıxırdılar. Vətəndaş müharibəsinə gəldikdə, AXC bunu Rusiyanın daxili işi sayır, heç bir halda ona qarışmaq niyyəti yox idi[19].

Kuban və Dağlı Respublikaları Sovet Rusiyası ilə AXC arasında bufer rolunu oynayırdılar.Bu AXC - nin dövlət təhlükəsizliyi məsələsi idi və beləliklə, diplomatik nümayəndəliyin yaradılması KXR ilə AXC arasında təkcə siyasi deyil, iqtisadi və humanitar sahələrdə əməkdaşlığa şərait yaratdı.

İkinci yarımfəslin ikinci bəndi **”Kuban – Azərbaycan iqtisadi əlaqələri”** adlanır.Burada iki respublika arasında iqtisadi əlaqələr tədqiq edilmişdir.Alınan nəticə ondan ibarətdir ki, Kubanla Azərbaycan arasında iqtisadi əlaqələr obyektiv səbəblərdən daha çox tranzit ticarəti xarakteri daşıyırdı. Kubanın Azərbaycandan kənd

[19] Донесение дипломатического представителя Азербайджана в Кубани Дж. Рустамбекова министру иностранных дел М. Ю. Джафарову. 24 июня 1919 г. // Государственный Архив Азербайджанской Республики, Фонд № 897, опись № 1, дело № 38, лист –59–60.

təsərrüfatı məhsulları idxalına zərurət yox idi.Əksinə Gürcüstan vasitəsi ilə Kubandan Azərbaycana taxıl, bitki yağı və sair vacib kənd təsərrüfatı məhsulları gətirilirdi. Sənaye məhsullarına gəldikdə, Mozdok neft rayonu Kubanın neft məhsullarına tələbatını tam ödəmədiyinə görə Azərbaycandan Kubana yalnız neft məhsulları ixrac edilirdi. ABŞ və Avropa ölkələrində istersal olunan keyfiyyətli yüngül sənaye məhsullarına böyük tələbatı olan Kuban bu məhsulları beynəlxalq aləmə daha çox çıxmaq imkanı olan Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və sair respublikalar vasitəsi ilə əldə edirdi. Göründüyü kimi, baxdığımız dövrdə Azərbaycanla Kuban arasında münasibətlər daha çox siyasi və humanitar məsələləri əhatə etmişdi.

İkinci yarımfəslin üçüncü bəndi **“Kuban Xalq Respublikası və Azərbaycan Xalq Cümhuriyyətinin Qafqazda qaçqın məsələsinin həllində fəaliyyətləri”** adlanır. Bu bənddə AXC ilə KXR arasında qaçqın məsələsində əməkdaşlıq məsələləri araşdırılmışdır. Özlərinin çətin siyasi, iqtisadi durumda olmasına baxmayaraq, 1918-1920-ci illərdə Kuban respublikası ilə Azərbaycan Cümhuriyyəti hökumətləri qaçqın düşmüş insanlara yardım göstərirdilər.Bu əməkdaşlığa maneə yaradan əsas qüvvələrdən biri Rus Milli Şurası idi. Həm Tiflisdə, həm də Bakıda fəaliyyət göstərən Rus Milli Şurası ayrı-seçkilik edərək yalnız slavyan mənşəli qaçqınlara qaygı göstərirdi və bu “qayğı”nın arxasında siyasi məqsədlər dururdu.Belə ki, rus şovinizmi mövqelərində duran Rus Milli Şurası slavyan mənşəli qaçqınlardan AXC-yə düşmən olan “Könüllü Ordu”nun möhkəmlənməsi məqsədilə istifadə edirdi[20].Rus Milli Şurasının bu məzmunlu fəaliyyəti nə KXR, nə də AXC hökumətləri tərəfindən qəbul edilmirdi və daha çox müstəqilliyə malik olan AXC bu məsələdə daha sərt tədbirlər görürdü.

KXR və AXC parlamentləri son iclaslarınadək qaçqınların məskunlaşdırılması məsələsini gündəmdə saxlamışlar, bu problemin milli ayrı-seçkiliyə yol vermədən həll etməyə çalışmışlar.

[20] Протоколы о приеме добровольцев в военные части.7 января 1918 года. Тифлис // Государственный Исторический Архив Грузинской Республики, Фонд1820, опись №1, дело №124, листы– 1–15.

**“Kuban və Azərbaycan nümayəndə heyətlərinin Paris sülh konfransında əməkdaşlığı”** adlı ikinci fəslin üçüncü yarımfəslində beynəlxalq arenada iki respublika nümayəndələrinin əməkdaşlığından bəhs olunur. Qeyd olunur ki, hər iki gənc dövlət beynəlxalq səviyyədə tanınmaq və Millətlər Liqasının üzvü olmaq, bununla da öz siyasi varlığına qarant qazanmaq istəyirdilər.Parisdə AXC və KXR nümayəndə heyətləri sıx əməkdaşlıq etmişlər, birgə memorandumlar, bəyanatlar hazırlayaraq Paris Sülh Konfransında iştirak edən Müttəfiq ölkələrin nümayəndələrinə təqdim etmişlər, gənc respublikaların de-fakto və de-yure tanınması uğrunda mübarizə aparmışlar. Lakin Kuban nümayəndələrinin fəaliyyəti konkret bir nəticəyə gətirmədi – Antanta ölkələri Kubanı Rusiyanın tərkib hissəsi sayaraq onu rəsmən tanımaqdan imtina etdilər və bununla bir daha general Denikini dəstəklədiklərini vurğuladılar. Paris sülh konfransında Kuban nümayəndələrinin sərbəst fəaliyyəti onların canı bahasına başa gəldi: Denikin onlara qarşı repressiyalara başladı[21], Kubanın mütərəqqi siyasi elitası məhv edildi, Kuban respublikası 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərinə Denikinin və Cənubi Rusiya Silahlı Qüvvələrinin nəzarətinə keçdi.

Dissertasiya işinin üçüncü fəsli **“Böyük Don Qoşunu – Don Respublikasinin yaranması və Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələri”** adlanır. Fəsli əhatə edən problemlər üç yarımfəsildə əksini tapmışdır.**“Böyük Don Qoşunu - Don Respublikasının yaranması, onun daxili və xarici siyasəti”** adlı birinci yarımfəsildə Don respublikasının yaranması və fəaliyyətinin xüsusiyyətləri araşdırılmışdır. Kubandan fərqli olaraq Donda bolşeviklərə təəssübkeşlik edən əhali daha çox olmuşdur və buna görə 1918-ci ilin əvvəllərində qeyri-kazakların və qırmızı kazakların dəstəyi ilə Donda sovet hakimiyyəti elan olundu. Ancaq 1918-ci ilin mayın əvvəllərinə Alman qoşunlarının dəstəyi ilə general Krasnovun orduları bolşevikləri

[21]Атаманам Донскому, Кубанскому, Терскому. Телеграмма генерала А. Деникина от 26 октября 1919 года. Таганрог // Государственный Архив Краснодарского Края, Фонд № р–6, опись № 1, дело №126, лист–233.

sıxışdıraraq Donu ələ keçirdilər və Böyük Don Ordusunu – Don Respublikasını elan olundu[22].General Krasnovun rəhbərlik etdiyi Don respublikasında dövlət quruculuq işləri başladı. Lakin beynəxalq aləmdə baş verən hadisələr və ilk növbədə Almaniyanın I Dünya müharibəsində məğlubiyyəti, Almaniyada başlayan inqilab – bütün bunlar alman qoşunlarının Dondan çıxmasına, müvafiq olaraq general Krasnovun nüfuzunun düşməsinə, Denikinin mövqelərinin güclənməsinə gətirdi.

Üçüncü fəslin "**Don Respublikasının Cənubi Rusiya Silahlı Qüvvələrinə (CRSQ) inkorporasiya olunması və AXC-CRSQ münasibətlərində ziddiyyətlər**" adlı ikinci yarımfəslində Denikinin diktaturası dövründə Don respublikasının mütərəqqi inkişaf yolundan ayrılaraq "Vahid və bölünməz Rusiya" uğrunda mübarizənin əsas mərkəzinə çevrilməsi, AXC və sair gənc Qafqaz Respublikaları üçün əsas siyasi-hərbi təhlükə mənbəyinə çevrilməsi və sair məsələlər araşdırılmışdır.

Donu özünün baza ərazisinə çevirən və Kuban üzərində nəzarəti ələ alan Denikin Dağlı, Gürcüstan, Azərbaycan kimi yeni yaranan respublikaları da özünə birləşdirməyə çalışırdı. Bu səbəbdən, 1919-cu ilin yazından 1920-ci ilin əvvəllərinədək AXC ilə CRSQ arasında qızğın diplomatik - siyasi mübarizə getdi. Mübarizə əsasən "rus məsələsi", Dağlı respublikasında təsir dairəsi uğrunda və Xəzər Donanmasının bölüşdürülməsi və onun ətrafındakı məsələlərlə bağlı cərəyan edirdi.

AXC ilə CRSQ arasında mülayimləşmə dövrü də olmuşdur. Lakin Denikinin AXC-nin müstəqilliyini tanımaması, onunla Rusiyanın bir bölgəsi kimi davranması, 1919-cu ilin mayında Dağlı respublikasını ləğv edərək[23] AXC-nin şimal hüdudlarında böyük hərbi

---

[22] Стариков Т. Этапы борьбы Дона за свою независимость. // – Прага: Вольное Казачество, –№137. – с.18.

[23] Донесение дипломатического представителя Азербайджана в Горской Республике А.Ахвердова министру иностранных дел М.Ю. Джафарову о смене правительства в республике.19 мая 1919 г. // Государственный Архив Азербайджанской Республики, Фонд №970, опись №1, дело № 59, лист–29–30.

qüvvələr cəmləşdirməsi, Xəzər donanmasının bölüşdürülməsi ilə bağlı AXC-yə qarşı irəli sürdüyü imperialist tələblər - bütün bunlar AXC-ni CRSQ-dən uzaqlaşdırdı və 1919-cu ilin noyabrın sonlarında AXC-nin Don Respublikasındakı diplomatik nümayəndəliyi öz fəaliyyətini dayandırmağa məcbur oldu.

Üçüncü fəslin üçüncü yarımfəsli **"Donun və Kubanın Sovet Rusiyası tərəfindən işğalı və Azərbaycan Xalq Cümhuriyyətinin mövqeyi"** adlanır. Bu yarımfəsildə 1920-ci ilin yazında Kuban və Don respublikalarının Sovet Rusiyası tərəfindən işğalı, bu işğalın AXC-nin beynəlxalq durumuna və ilk öncə Sovet Rusiyası ilə münasibətlərinə təsiri və sair məsələlər tədqiq edilmişdir.

1920-ci ilin əvvəllərindən Sovet Rusiyası AXC-yə qarşı təzyiqlər edir, ondan Denikinə qarşı hərbi əməliyyatlarda iştirak etməyi tələb edirdi. Lakin AXC hökuməti başqa ölkələrin və xalqların daxili işlərinə qarışmamaq prinsipinə sadiq qalaraq "rus məsələsi"nə qarışmayacağını, Vətəndaş müharibəsini Rusiyanın daxili işi olduğunu Sovet rəhbərliyinə çatdırdı ki, bu da Moskvanı qane edə bilməzdi. Şimali Qafqazda Denikin orduları məğlubiyyətə uğramağa davam edir, Qırmızı Ordu günbəgün cənub istiqamətində irəliləyirdi. Yaranmış dramatik şəraitdə 1920-ci ilin fevralında Denikin AXC-ni tanıdığını bildirsə də, artıq əməkdaşlıq üçün şans itirilmişdi.1920-ci ilin mart ayının əvvəllərindən Qırmızı Ordu Donda, Kubanda və Şimali Qafqazda geniş əməliyyata başladı və mart ayının sonuna darmadağın edilən Denikin qoşunlarının qalıqları Krıma qaçmağa məcbur oldular.

Beləliklə, 1920-ci ilin aprelində Donda, Kubanda, Şimali Qafqazda Sovet hakimiyyəti bərpa oldu.Şimali Qafqazın işğalından sonra XI Qırmızı Ordu AXC-yə qarşı təcavüzə hazırlığa başladı.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.Belə qənaətə gəlinmişdir ki, Kuban və Don respublikalarının daxili və xarici siyasətinə təsir göstərən ən vacib amillərdən biri əhali və daha dəqiq desək, burada yaşayan əhalinin etnik mənsubiyəti amili olmuşdur. Bu regionda min illərlə sürən etnogenez prosesi nəticəsiz

ötüşməmişdir və əhalinin həyat tərzində, dünyagörüşündə, düşüncə tərzində, dəyərlər sistemində dərin iz buraxmışdır. XVIII əsrin ikinci yarısından Kubanın Qaradəniz sahili ərazilərinə köçürülən ukraynalı Zaporojye kazakları, Kubanın mərkəzi və şimal hüdudlarında məskunlaşdırılan Don kazakları Kubanın gələcək tarixinə həlledici təsir edən bir amilə çevrildilər.

1917-ci ilin Fevral inqilabı və çarizmin devrilməsi Kuban və Donda dövlət quruculuğunun yeni mərhələsinə imkan yaratdı, demokratikləşmə prosesi başladı. Rusiyada 1917-ci ilin oktyabrında dövlət çevrilişi və bolşeviklərin hakimiyyətə gəlişindən sonra Don, Kuban, Şimali Qafqaz və Böyük Çöl xalqlarının yaratdığı Cənub-Şərq İttifaqı hökuməti kəskin sosial və milli münaqişələrin öhdəsindən gələ bilmədi və nəticədə, 1918-ci ilin yanvarına Cənub Şərq İttifaqı öz-özünə siyasi səhnədən silindi.

1918-ci il yanvarın 8-də Müəssislər Məclisinin dağılması ilə azad parlament yolu ilə demokratik Rusiya qurmaq perspektivləri alt-üst oldu, Kuban və Don suveren respublikalar kimi öz müstəqillik yoluna qədəm qoydular.

General Denikinin təzyiqlərinə baxmayaraq Kuban və Don respublikaları fəal xarici siyasət yürütməyə çalışırdılar və bu sahədə onunla ən çox əməkdaşlıq edən ölkələrdən biri də Azərbaycan Xalq Cümhuriyyəti olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti keçmiş Rusiya imperiyası ərazilərdə yaranan gənc dövlətlərlə, o cümlədən Kuban və Don respublikaları ilə diplomatik münasibətlərin qurulmasına xüsusi önəm verirdi və siyasi-diplomatik, iqtisadi münasibətlərin qurulması bütün tərəflərin maraqlarına xidmət edirdi.

Kuban və Don respublikalarının müstəqil xarici siyasət yürütməsi, o cümlədən AXC ilə əməkdaşlığı Denikinin yaratdığı Cənubi Rusiya Silahlı Qüvvələrinin maraqlarına zidd idi və bu səbəbdən Denikin bu respublikalara qarşı repressiyalara başladı. Don respublikası 1919-cu ilin fevralında, Kuban respublikası isə 1919-cu ilin sonu-1920-ci ilin əvvəllərinə Denikinin nəzarətinə keçdi.Bu səbəbdən, 1919-cu ilin yazından AXC ilə CRSQ arasında qızğın diplomatik - siyasi mübarizə getdi və nəticədə 1919-cu ilin noyabrın sonlarında

AXC-nin Kuban və Don respublikalarındakı diplomatik nümayəndəlikləri öz fəaliyyətini dayandırmağa məcbur oldu.

1920-ci ilin mart ayının əvvəllərindən Qırmızı Ordu Donda, Kubanda və Şimali Qafqazda geniş əməliyyata başladı, mart ayının sonuna darmadağın edilən Denikin qoşunlarının qalıqları Krıma qaçmağa məcbur oldular. Beləliklə, 1920-ci ilin aprelində Donda, Kubanda, Şimali Qafqazda Sovet hakimiyyəti bərqərar oldu.Şimali Qafqazın işğalından sonra XI Qırmızı Ordu AXC-yə qarşı təcavüz etdi, Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Keçmiş Rusiya imperiyası ərazilərində yaranan Azərbaycan Xalq Cümhuriyyəti, Kuban və Don respublikaları və sair gənc dövlətlərin süqutunun əsas səbəblərindən biri anti-bolşevik qüvvələr arasındakı ziddiyyətlər, onların bir araya gələ bilməməsi olmuşdur ki, bu səhvlər Sovet hakimiyyətinin sonrakı illərində Azərbaycan xalqına, eləcədə SSRİ-də yaşayan xalqlara minlərlə qurbanlar bahasına başa gəlmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Отношения между Вооруженными Силами Юга России (ВСЮР) и Азербайджанской Демократической Республикой (1919–1920) // Вестник Майкопского государственного технологического университета.–Майкоп: Издательство ФГБОУ ВО «МГТУ».– 2021. – Том 13. – № 4, – с. 31–38.
2. 1918–1920–cu illərdə Ermənistan Qafqaz birliyi ideyasına təhdid kimi (tarixi–müqayisəli təhlil) // İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi. 44 günlük Vətən müharibəsində qazanılan qələbənin ildönümünə həsr olunmuş Beynəlxalq elmi–praktik konfransın materialları, – Bakı: 21–22 oktyabr, – 2021– ci il,– s. 346–349.
3. Дипломатичні відносини Кубанської Народної Республіки з Азербайджанською Демократичною Республікою

(1918–1920 pp.) //–Луцьк (Украина), Літопис Волині. Всеукраїнський науковий часопис . Видавничий дім «Гельветика», –2021. №25, – с.74–79. (həmmüəllif Агасієв І. К)

4. Сотрудничество Азербайджана с кубанским правительством в борьбе против большевизма и Деникина // Восьмые Всероссийские историко–этнографические чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича: сб. статей. – Махачкала: Издательство ДГУ, – 2021. – с.70–73.

5. Don Respublikasının yaranması, daxili siyasəti və beynəlxalq əlaqələri (1918–1920) // Bakı: "Sivilizasiya" yurnalı, – cild 11, –№1, –2022 (50),-Bakı, Avrasiya Universitetinin nəşri, 2022, c.93–102. (həmmüəllif Ağasiyev İ.)

6. Kuban Xalq Respublikasinin yaranmasi, fəaliyyəti və süqutu // –Bakı: "Tarix və onun problemləri" yurnalı, 2022. –№1,– s.17–23. (həmmüəllif Ağasiyev İ.)

7. Paris sülh konfransında Kuban nümayəndə heyətinin Azərbaycan nümayəndə heyəti ilə əməkdaşlığı // – Bakı: Tarix, İnsan, Cəmiyyət. Elmi–nəzəri və elmi–metodik jurnal, – 2022. №1(34), – s.128–136.

8. Отношения Азербайджанской республики с Горской республикой и Кубанским правительством (1918–1920 гг.) // Сборник материалов I Международной научной конференции «Кавказ и Ближний Восток: вопросы истории и источниковедения»,посвященной памяти профессора Амри Рзаевича Шихсаидова (г. Махачкала, 24 ноября 2022 г.). – Махачкала: Издательство ДГУ, – 2022. – С.32–39.

9. Don Cümhuriyəti və Güney Rusiya Silahlı Qüvvələrinin Azərbaycan Xalq Cümhuriyəti ilə münasibətləri (1918-1920). Akademik Tarih ve Düşünce Dergisi, 10 (5), 2023, 1287-1300. (həmmüəllif Ağasiyev İ.)

10. Деятельность Кубанской Народной Республики и Азербайджанской Демократической Республики по решению проблемы беженцев на Кавказе в 1918-1920 гг.// Azərbaycan Milli Elmlər Akademiyası. Gəncə bölməsi Xəbərlər məcmuəsi. "İctimai və humanitar elmlər" seriyası, No 4 (8), 2023, s.182-189.



Dissertasiyanın müdafiəsi 13 fevral 2025-cü il tarixində saat 10⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 yanvar 2025-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.01.2025
Kağızın formatı: A5
Həcm:     47685
Tiraj: 100